18 oktyabr Müstəqilliyin Bərpası Günüdür!

41 (1398) 16-22 oktyabr 2025-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"AZƏRBAYCAN İLƏ TACİKİSTAN ARASINDA MÜNASİBƏTLƏR ARDICIL ŞƏKİLDƏ İNKİŞAF EDİR"

MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən məhdud tərkibdə iclasında çıxış edən Prezident İlham Əliyev Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl şəkildə inkişaf etdiyini bildirib.

Dövlətimizin başçısı deyib: *"Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafını qeyd etmək istərdim. Bu əlaqələr qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir".*

PREZİDENT İLHAM ƏLİYEV ŞURANIN İCLASINDA LAÇININ İNKİŞAFINDAN DANIŞIB

Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunub və Laçının inkişafından danışıb.

Dövlətimizin başçısı qeyd edib: *"Bugünkü iclasda humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunmaq istərdim. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiyinə görə MDB dövlət başçılarına təşəkkürümü bildirirəm".*

Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı ili"nin açılış mərasiminin keçirildiyini vurğulayan Prezident İlham Əliyev deyib ki, tədbir gedişində Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verilib. Dövlətimizin başçısı əlavə edib: *"Tədbirin qonaqları Ermənistanın 30 illik işğalından azad ediləndən sonra Laçının sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular".*

AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ BAŞLANIR



Düşənbədə Prezident İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş Bakı-Moskva münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunur.

Görüşdə müzakirə olunan məsələlər və liderlərin çıxışlarında diqqətçəkən məqamlar bunu deməyə əsas verir. Prezident Putinin açıqlamaları onu göstərdi ki, Azərbaycanın təyyarə qəzasından sonra irəli sürdüyü şərtlər, haqlı mövqe Rusiya lideri tərəfindən rəsmən qəbul edilib. Putin faciənin Rusiya səmasında baş verdiyinə görə üzrxahlıq edərək, bu məsələdə ölkəsinin məsuliyyət daşıdığını etiraf etdi. Eyni zamanda, zərərçəkən ailələrə kompensasiya ödəniləcəyini və günahkarların cəzalandırılacağını bildirdi. Ekspertlər hesab edirlər ki, səsləndirilən bu fikirlər bir ölkənin digərinin mövqeyinə verdiyi sadə reaksiya deyil, bu, Azərbaycan Liderinin prinsipial mövqeyinin, rəsmi Bakının siyasi çəkisinin göstəricisidir.

VLADİMİR PUTİN: "ÜMİD EDİRƏM Kİ, BİZ BU SƏHİFƏNİ ÇEVİRMİŞİK"

"Təyyarə qəzası və sərnişinlərinin həlak olması ilə bağlı faciəvi hadisələrə baxmayaraq, Rusiya ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərdə böhran olmayıb".

Bu barədə Rusiya Prezidenti Vladimir Putin Tacikistana dövlət səfərinin yekunlarına dair keçirilən mətbuat konfransında bildirib.

Rusiya dövlət başçısı vurğulayıb ki, iki ölkə arasında iqtisadi əməkdaşlıq artmaqda davam edib, yaranan gərginlik isə emosional xarakter daşıyıb.

V.Putin qeyd edib ki, fəlakətin obyektiv araşdırılması üçün vaxt və əhəmiyyətli texniki iş tələb olunub: "qara qutu"ların axtarışı və şifrəsinin açılması, Müdafiə Nazirliyinin, Rusiya və Qazaxıstanın hava hərəkətinə nəzarət xidmətlərinin məlumatlarının müqayisəsi. O bildirib ki, istintaq yekunlaşmaq üzrədir. Onun nəticələri ümumilikdə aydındır, Azərbaycanla əməkdaşlıq isə bütün istiqamətlərdə - logistika, sənaye, humanitar sahədə davam edir.

"Mən çox ümid edirəm ki, biz bu səhifəni çevirmişik, irəliləyəcəyik və heç bir problem olmadan əlaqələrimizi inkişaf etdirəcəyik", - deyə Vladimir Putin bildirib.

TRAMP YAXIN ŞƏRQ SÜLH SAMMİTİNDƏ VAŞİNQTON GÖRÜŞÜNDƏN DANIŞIB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirdə işgüzar səfərdə olub.

Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq deyib: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır".

Sonra sülh sazişinin imzalanması mərasimi olub.

* * * *

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirib: *"Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun".*

Türkmənistanla enerji sektorunda əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var

"Azərbaycan və Türkmənistanı ortaq tarix, mədəniyyət, etnik köklər, dil və din birləşdirir. Ölkələrimiz arasındakı qardaşlıq münasibətləri bizə birgə layihə və təşəbbüsləri uğurla həyata keçirmək üçün inamla irəliləməyə imkan verir. Dövlət başçıları arasındakı yüksəksəviyyəli etimad, Azərbaycan və Türkmənistanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə göstərdiyi davamlı qarşılıqlı dəstək, həmçinin qlobal və regional məsələlərdə mövqelərinin uzlaşması tərəfdaşlığımızın möhkəmləndirilməsində xüsusi rol oynayır".

Bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistanın Müstəqillik Günü münasibətilə Bakıda təşkil olunan rəsmi qəbulda söyləyib.

O bildirib ki, Azərbaycan xüsusilə Türkmənistanla iqtisadi əlaqələrin daha da inkişafına maraq göstərir: ***"Ölkələrimiz arasındakı tərəfdaşlıq iqtisadiyyat, nəqliyyat, enerji, humanitar sahələr, mədəniyyət, təhsil və parlamentlərarası dialoq sahələrində uğurla inkişaf etməyə davam edir".***

"Enerji sektorunda əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur. SOCAR Türkmənistanda perspektivli neft və qaz yataqlarının inkişafı layihələrində iştirak etməyə maraqlıdır. Azərbaycan və Türkmənistan arasındakı əməkdaşlıq Orta Dəhlizin effektivliyinin artırılmasında mühüm rol oynayır. Bu marşrut üzrə tranzit daşımaların həcmi ilbəil davamlı şəkildə artmaqdadır", - deyə M.Cabbarov vurğulayıb.

"Araz dəhlizinin istifadəyə verilməsi regionumuz üçün olduqca əhəmiyyətlidir"

"Bununla Azərbaycan yeni geosiyasi imkanlar əldə edəcək və üstünlüklər qazanacaq".

Bu sözləri jurnalistlərə açıqlaması zamanı Baş nazirin müavini Şahin Mustafayev deyib.

Onun sözlərinə görə, Azərbaycanın Qələbəsi regionda nəqliyyat-logistika və tranzit sahəsində yeni və geniş imkanlar yaratdı.

"Azərbaycan bu imkanlardan istifadə edilməsi üçün dərhal işlərə başlayaraq infrastruktur layihələri həyata keçirməyə başladı. İran hökuməti ilə 2022-ci ilin mart ayında müvafiq Anlaşma Memorandumu imzalandı. Bu memorandum Azərbaycanın Şərqi Zəngəzur bölgəsini İran üzərindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək infrastrukturun yaradılması idi. İlk addım kimi Azərbaycanın Ağbənd və İranın Kələlə kəndləri yaxınlığında avtomobil körpüsünün tikintisinə başlanıldı. Bu körpünün tikintisi ilin sonuna kimi başa çatacaq. Gömrük və sərhəd infrastrukturunu da gələn il Novruz bayramınadək başa çatdırmağı nəzərdə tuturuq. Bununla da yeni Araz dəhlizinin fəaliyyətə başlamasına start veriləcək. Bu dəhliz həm Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə daha qısa yolla əlaqəsini təmin edəcək, həm "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yeni qolu rolunu oynayacaq", - deyə Ş.Mustafayev vurğulayıb.

Baş nazirin müavini qeyd edib ki, bu dəhliz Körfəzi Qara dənizlə birləşdirəcək: ***"Beləliklə, Azərbaycan bununla yeni geosiyasi imkanlar əldə edəcək. Dəhliz iqtisadi əlaqələrin genişləndirilməsinə xidmət göstərəcək.***

Eyni zamanda, azad olunmuş ərazilərdə aktiv iqtisadi fəaliyyətə imkan yaradacaq və doğma evlərinə qayıdan keçmiş məcburi köçkünlərin aktiv iqtisadi fəaliyyətinə imkan yaranacaq. Bu dəhliz həm Azərbaycan, həm də qonşu ölkələr, region üçün çox faydalı olacaq", - deyə Ş.Mustafayev vurğulayıb.

Azərbaycan-Belarus biznes forumu keçirilib

Bakıda Azərbaycan-Belarus biznes forumu keçirilib.

Forumda Azərbaycan və Belarus arasında qarşılıqlı iqtisadi-ticarət tərəfdaşlığının genişləndirilməsi məqsədilə iki ölkənin işgüzar dairələri arasında müzakirələr aparılıb, şirkətlər arasında sənədlər imzalanıb.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Belarus Ticarət və Sənaye Palatasının Minsk bölməsinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan-Belarus biznes forumunda hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, logistika, tikinti, qida sənayesi və digər sahələrdə fəaliyyət göstərən 40-dək şirkət nümayəndəsi iştirak edib.

Forumda çıxış edən Belarusun Azərbaycandakı səfiri Dmitri Pineviç iki ölkə arasında qurulan münasibətlərdən danışaraq Belarus ilə Azərbaycanın mövcud əməkdaşlıq potensialını yüksək qiymətləndirib.

Belarus Ticarət və Sənaye Palatasının Minsk bölməsinin baş direktorunun xarici iqtisadi əlaqələr üzrə müavini İrina İvanova ölkəsinin ticarət və sənaye potensialı, eləcə də Azərbaycanla birgə fəaliyyətin genişləndirilməsi üçün potensial sahələr barədə məlumat verib.

Forum çərçivəsində Azərbaycan və Belarus şirkətləri arasında əməkdaşlıq sazişləri imzalanıb. Tədbir B2B görüşlərlə davam edib.

Azərbaycan-İran əməkdaşlığının aktual məsələləri müzakirə olunub

Oktyabrın 13-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqlə görüşüb.

Görüşdə Azərbaycan ilə İran arasında münasibətlərin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlər, xüsusilə də nəqliyyat-tranzit, energetika, gömrük və digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantılarının inkişafı layihəsi çərçivəsində Araz çayı üzərində Ağbənd-Kələlə avtomobil yolları körpüsünün və gömrük-sərhəd infrastrukturunun tikintisi üzrə işlərin yekunlaşdırılması ilə bağlı məsələlər müzakirə olunub.

Tərəflər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi ilə bağlı gündəlikdə duran aktual məsələləri nəzərdən keçiriblər.

Qeyd olunub ki, "Şimal-Cənub" dəhlizi ilə daşımaların həcmi 2025-ci ilin 9 ayı ərzində 8,3 faiz artıb və bunun da 10,4 faizi avtomobil, 2 faizi isə dəmir yolu daşımalarının payına düşür.

Həmçinin Astaraçay çayı üzərində inşa olunmuş avtomobil körpüsünün tam gücü ilə işə salınması üçün görüləcək zəruri tədbirlər barədə fikir mübadiləsi aparılıb.

İşğaldan azad edilmiş ərazilərdə Belarus texnikasına xidmət göstərəcək servis mərkəzi yaradılır

"Azərbaycanın traktor parkının təqribən 80 faizi Belarus istehsalı olan maşınlardan ibarətdir. Gəncə Avtomobil Zavodu ilə Minsk Traktor Zavodu arasında əməkdaşlıq uğurla davam etdirilir".

Bu barədə Bakıda keçirilən Azərbaycan-Belarus Biznes Forumunun açılışında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı məlumat verib.

O qeyd edib: "2007-ci ildən Azərbaycanda 14 mindən çox Belarus traktoru və 3 minə yaxın yük maşını yığılıb. May ayında Gəncə və Minsk avtomobil zavodları arasında sərnişin-yük avtomobillərinin komplekt hissələrinin tədarükünə dair müqavilə imzalanıb. Eyni zamanda, ehtiyat hissələrinin birgə istehsalı qurulur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında Belarus avadanlıqlarına xidmət göstərmək üçün servis mərkəzi yaradılır.

Lift avadanlığı üzrə birgə işlər artıq praktiki müstəviyə keçib. Ötən ilin oktyabrında Azərbaycanda liftlərin birgə istehsalı və satışına dair müqavilə imzalanıb. Bu il birinci mərhələdə 200 liftin yığılması nəzərdə tutulub".

Azərbaycanın yüksək investisiya potensialına toxunan T.Hacılı deyib: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında irimiqyaslı bərpa layihələri həyata keçirilir. "Ağıllı" inkişaf konsepsiyasına uyğun olaraq qəsəbələrin tikintisi aparılır. Qarabağ yaşıl enerji zonası elan edilib, bərpaolunan enerji mənbələrinə xüsusi diqqət yetirilir. İnvestisiya cəlbediciliyinin artırılması məqsədilə vergi güzəştləri tətbiq olunub və hazırda qüvvədədir. Rezidentlər 10 il müddətinə gəlir, əmlak, habelə sadələşdirilmiş vergilərdən azaddırlar.

Artıq bu regionda Ağdam Sənaye Parkı və "Araz vadisi" İqtisadi Zonası fəaliyyət göstərir. İnvestorlar vergi güzəştləri ilə yanaşı, dövlət vəsaiti hesabına yaradılmış müasir infrastruktur əldə edirlər ki, bu da giriş xərclərini əhəmiyyətli dərəcədə azaldır və layihənin icrasını sürətləndirir".

"Biz, həmçinin Belarus bazarında "İstisu" mineral içkisini təşviq edirik. Müqavilə imzalanıb, laboratoriya sınaqları və Avrasiya İqtisadi İttifaqı çərçivəsində qeydiyyat başa çatıb, birinci partiya artıq ixrac edilib", - deyə Tural Hacılı bildirib.

KOBİA "Rebuild Karabakh" sərgisində xüsusi stendlə iştirak edir

Bakı Ekspo Mərkəzində 5-ci Yubiley Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı Sərgisi ("Rebuild Karabakh 2025") keçirilir.

Sərgidə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılmasına, satış imkanlarını genişləndirilməsinə və yeni biznes əlaqələrinin qurulmasına dəstək məqsədilə bu dəfə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə KOB-lar üçün ayrıca stend qurulub. Stenddə 10-a yaxın KOB subyektinin sənaye və inşaat məhsulları, tikinti materialları, istehsalat avadanlıqları, işçi geyimləri və müxtəlif xidmətlər təqdim edilir. Həmçinin stenddə Qarabağın biznes və investisiya imkanları, bölgənin potensialı, işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parkları, sahibkarlar üçün nəzərdə tutulan güzəştlər barədə məlumat verilir. KOBİA-nın və tərəfdaş qurumların dəstəyi ilə həyata keçirilən "Qarabağ KOB-ları" proqramı barədə məlumat da sərgi ziyarətçilərinin diqqətinə çatdırılır. Stenddə iş adamlarının ikitərəfli görüşlər keçirməsi üçün şərait də yaradılıb.

Sənayedə qeyri-dövlət sektorunun payı 80 faiz olub

Cari ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 47,3 milyard manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz az sənaye məhsulu istehsal edilib, məhsul istehsalı neft-qaz sektorunda 1,9 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 4,8 faiz artıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, sənaye məhsulunun 60,9 faizi mədənçıxarma, 32,7 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 79,5 faiz olub. Ümumi istehsalın 88,6 faizi sənaye məhsullarının istehsalı, 11,4 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

Bu ilin yanvar-sentyabr aylarında 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə qısamüddətli istifadədə olan malların istehsalı 8,4 faiz, istehsal vasitələrinin istehsalı 0,9 faiz artıb, aralıq istehlak məhsullarının istehsalı 0,8 faiz, enerji məhsullarının istehsalı 1,4 faiz, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı 5 faiz azalıb.

İtaliyaya ixrac olunan qazın həcmi açıqlanıb

Bu ilin yanvar-avqust aylarında Azərbaycandan İtaliyaya 3,1 milyard ABŞ dolları dəyərində (qaz halında) 6,2 milyard kubmetr təbii qaz ixrac edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

Məlumata əsasən, ötən ilin eyni dövrü ilə müqayisədə bu göstərici pul ifadəsində 495,6 milyon ABŞ dolları və ya 18,8 faiz artıb, həcm baxımından isə 405,7 milyon kubmetr və ya 6,1 faiz azalıb.

Belə ki, 2024-cü ilin yanvar–avqust aylarında Azərbaycan İtaliyaya təxminən 2,6 milyard ABŞ dolları məbləğində, 6,7 milyard kubmetr həcmində təbii qaz satıb.

Dəyərli alim, görkəmli ictimai xadim, səmimi dost

Cəmiyyətin inkişafını təmin edən əsas amillərdən biri onun ziyalıları, oddan-alovdan çıxmış şəxsiyyətləridir. Onlar hansı dövrdə yaşamalarından asılı olmayaraq həmişə xalqının, vətəninin inkişafı üçün böyük zəhmət çəkmişlər. Azərbaycanın belə şəxsiyyətlərindən biri uzun illər respublikamızın ictimai, siyasi, sosial-iqtisadi həyatında silinməz iz buraxmış Həsən Həsənovdur. ***Həsən müəllim son 60 ildə respublikanın ali dövlət strukturlarında çalışan yüksək vəzifəli şəxslərdən biri kimi Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın sosial-iqtisadi inkişafı ilə əlaqədar strategiyanın həyata keçirilməsində bilavasitə əsas təşkilatçılarından biri kimi məhsuldar fəaliyyət göstərmiş, doğma vətəninə, xalqına ləyaqətlə xidmət etmişdir. Bu çətin, məsuliyyətli, amma şərəfli yolun hər günü bir tarixdir...***

Bir neçə söz onunla tanışlığım barədə. Mən 1965-1966-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Birləşmiş komsomol komitəsinin katibi idim, eyni zamanda Elmlər Akademiyasının Iqtisadiyyat Institutunda baş elmi işçi işləyirdim. Həsən müəllim isə respublika komsomol təşkilatında məsul vəzifədə çalışırdı.

Azərbaycan Gənclər Təşkilatının ümumrespublika tədbirlərində onunla görüşür, bir-birimizdən hal-əhval tuturduq... 1974-cü illərin əvvəllərində məni Mərkəzi Komitənin sənaye və tikinti məsələləri üzrə katibi Firudin Əliyev qəbul edərək bildirdi ki, Azərbaycan rəhbərliyinə Respublika tikinti kompleksinin inkişafı, onun səmərəlilik göstəriciləri ilə bağlı bir arayış hazırlamaq lazımdır. Bu işin icrası aparatın sektor müdiri Həsən Həsənova, aparatın məsul işçisi Ramiz Tarverdiyevə və mənə həvalə olundu. Tapşırıq vaxtında yerinə yetirildi. Onu da qeyd etmək istərdim ki, hazırlanan arayışda respublikanın tikinti kompleksində vəziyyətin yaxşılaşdırılması ilə bağlı təkliflər öz əksini tapmışdı. Yarım əsr bundan əvvəl Həsən müəllimlə başlanan əməkdaşlığımız sonrakı illərdə daha da genişləndi.

Həsən müəllimin çox zəngin bioqrafiyası vardır. Gənc yaşlarından yuxarıda qeyd edildiyi kimi, Komsomol təşkilatının məsul işçisi, Kommunist Partiyasının Mərkəzi Komitəsində məsul işçi, Bakı şəhəri Səbayıl rayon Partiya komitəsinin birinci katibi vəzifələrində çalışmışdır.

Həsən Həsənov xeyli müddət respublikanın iqtisadi-sosial həyatında mühüm rol oynayan Gəncə şəhər partiya komitəsinin birinci katibi vəzifəsində çalışıb. Onu da xüsusi ilə vurğulamaq istərdim ki, Həsən Həsənovun respublikanın ikinci şəhərinə rəhbərlik etdiyi illərdə burada, sözün əsl mənasında irimiqyaslı tədbirlər həyata keçirildi. Zəngin tarixə malik olan bu diyarda milli-mənəvi dəyərlərin qorunması, şəhərin iqtisadi potensialının gücləndirilməsi istiqamətində xeyli işlər görüldü. Heç nə unudulmur. Gəncəyə yolum düşəndə bu qədim şəhərin ziyalıları, sənaye, tikinti və sosial sahələrdə çalışanlar Həsən müəllimin azərbaycançılıq ideologiyasına sadiqliyindən, tarixi ənənələrimizin qorunması üçün gördüyü böyük işlərdən ağız dolusu danışırlar.

Bir müddətdən sonra Həsən müəllim Azərbaycan KP MK-nın katibi seçildi. Respublika xalq təsərrüfatının iqtisadiyyatını (kənd təsərrüfatı istisna olmaqla) partiya rəhbərliyi tərəfindən ona həvalə edildi. Bu çox mühüm, həm də şərəfli iş idi.

Xalqımız XX əsrin 70 ilini sovet dövründə yaşayıb yaratmışdır. Sovet sisteminin milli respublikalar üçün çətinliklər yaratdığı məhdudiyyətlərə, çətinliklərə baxmayaraq, xalqımız bu illərdə böyük inkişaf yolu keçmişdir. Bunu inkar etməyə heç birimizin mənəvi haqqı yoxdur. Ötən əsrin 70-80-ci illərində Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi, mədəni həyatında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər baş verdi. İqtisadiyyatımızın gücü əhəmiyyətli dərəcədə möhkəmləndi. Sənayedə mütərəqqi struktur dəyişiklikləri baş verirdi. Xalq təsərrüfatının maddi-texniki bazası möhkəmləndirildi. Elm, təhsil, mədəniyyət sahələri inkişafın yeni mərhələsinə qədəm qoydu. XX əsrin 80-ci illərinin ortalarından başlayaraq Sovetlər İttifaqında xalqımızın düşməni Mixail Qorbaçovun ortaya atdığı yenidənqurma dövründə Mərkəzin Azərbaycana təzyiqləri xeyli artdı. Açıq-aşkar hiss edilirdi ki, Qorbaçov Heydər Əliyevə qısqanclıqla yanaşır. Mixail Qarbaçovun "alkoqolizmə qarşı mübarizə" pərdəsi altında Azərbaycanda 70-ci illərdə yaradılan güclü aqrar-sənaye kompleksi, xüsusi ilə də üzümçülüyün inkişafına güclü zərbələr vuruldu.

Respublikanın xalq təsərrüfatında yaranmış çətin vəziyyəti aradan qaldırmaq üçün yeni iqtisadi artım mənbələrinin aşkar edilməsi, onlardan istifadə imkanlarının müəyyənləşdirilməsi üçün daha təsirli tədbirlərin görülməsi tələb edilirdi. Həsən Həsənovun bilavasitə sədrliyi ilə respublika ərazi təsərrüfatı hesabına keçməsinə hazırlıq işlərinə başlanıldı, yeni dövrün tələblərinə uyğun olaraq plan, maliyyə, bank orqanlarının vəzifələri müəyyənləşdirildi.

Həsən müəllimin rəhbərliyi ilə xeyli işlər görüldü. Respublika nazirlik və idarələrinin, bank, maliyyə strukturlarının əməkdaşlarından ibarət işçi qrupları yaradıldı. Nazirlik istehsal birliklərinin təsərrüfat hesabına keçməsi, istehsal tapşırıqlarının yerinə yetirilməsi, iqtisadi həvəsləndirmə mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər hazırlandı. Təsərrüfat hesabına keçən müəssisə və istehsal birliklərinin fəaliyyətlərində müsbət meyillər gücləndi.

İş qrafiki çox gərgin idi. Mərkəzin tapşırıqları, sənaye, tikinti, nəqliyyatın inkişafı ilə əlaqədar məsələlərə dair şəhər, rayon partiya təşkilatlarına, nazirlik, sənaye istehsal birliklərinin rəhbərlərinə verilən tapşırıqlar, onların hesabatlarını dinləmək və s.

Həsən müəllim Qarabağ münaqişəsinin ilk günlərindən erməni separatizminə qarşı yorulmaz mübarizə aparır, Sovetlər İttifaqındankı ermənipərəst qüvvələrin əsassız çıxışlarına öz kəskin etirazlarını bildirir, xalqımızın azadlığa qovuşmaq arzularını böyük sevgi ilə müdafiə edirdi. Həsən müəllim Azərbaycan dövlətinin müstəqilliyinin ən çətin illərində xarici işlər naziri, bir neçə ölkədə diplomatik vəzifələrdə çalışmış, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində gərgin və məhsuldar işlər görmüşdür. Onu demək kifayətdir ki, Ulu öndər Heydər Əliyevin tapşırığı ilə Həsən Həsənovun diplomatik fəaliyyəti çox zəngin və mənalı olub. Arzu edərdim ki, hörmətli Həsən müəllimin bu barədə xatirələri də kitab şəklində nəşr edilsin.

Həsən müəllimin Mərkəzi Komitənin katibi kimi Azərbaycanın dəyərli sənət adamları, yaradıcı insanları, tanınmış ziyalıları ilə müntəzəm görüşləri, səmimi söhbətləri, dostluğu ilk növbədə, milli mədəniyyətimizin inkişafına, bu sahədə mövcud problemlərin həllinə kömək edirdi.

Həsən müəllimin tapşırıqlarının icrası ilə MK-nın sosial-iqtisadiyyat şöbəsinin əməkdaşları məşğul olurdu. Onlar xalq təsərrüfatı sahələri üzrə istehsal planlarının yerinə yetirilməsinə, iqtisadi, bank, maliyyə orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasına dair təkliflər hazırlayır, kompleks təhlillər aparırdı. Yeri gəlmişkən qeyd edim ki, Mərkəzi Komitənin sosial-iqtisadiyyat şöbəsində peşəkar, yüksək ziyalılığı ilə seçilən, bu gün də cəmiyyətdə böyük hörmətlə xatırlanan dəyərli insanlar çalışırlar. Onlardan bir neçəsinin adını çəkmək yerinə düşərdi. Natiq Əliyev – sonralar Neft Şirkətinin prezidenti, sənaye və energetika naziri, Siruz Abasbəyli - rabitə naziri, Fəxrəddin Cavadov - səhiyyə nazirinin birinci müavini, Neftçilər Xəstəxanasının baş həkimi, Əhməd Vəliyev - Dövlət Maddi-Texniki Təchizat Komitəsinin sədr müavini, Ramiz Rzayev – Nazirlər Kabinetinin tikinti şöbəsinin müdiri, İlyas Hacıyev – Nazirlər Kabinetinin İşlər idarəsnin müdiri, Rafiq Babayev- Dövlət Əmək Komitəsinin sədr müavini, şöbənin əməkdaşları - Vəli Nəcəfqulubəyov, Rəşid Babayev, Bəhruz Əliyev və digərləri dövlət strukturlarında məsul vəzifələrdə səmərəli fəaliyyət göstərmişlər.

Həsən müəllim bizim hamımız üçün güclü təşkilatçı, peşəkar mütəxəssis, yüksək ziyalı və səmimi dostdur.

Fikirlərimi ümumiləşdirərək bir daha vurğulamaq istərdim ki, Həsən müəllim xalqımızın çox dəyərli dövlət xadimlərindən, əsl ziyalılarımızdan biridir. Onun mənalı ömrünün 60 ili Azərbaycanın inkişafına, xalqımızın milli dəyərlərinin qorunmasına həsr edilib.

Həsən müəllim Azərbaycan elminin dəyərli alimlərindən biridir, tarix elmləri doktoru, professordur. Onun Azərbaycan tarixinin aktual problemlərinə həsr edilmiş əsərlərində öz əksini tapan faktlar vətən tarixinin qaranlıq səhifələrinin azaldılmasına, Türk dünyasının mənəvi dəyərlərinin qorunmasına xidmət edir.

Bu yazını hazırlayıb çapa verəndə Vaşinqtondan xoş xəbər gəldi - Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycan-Ermənistan sülh bəyannaməsi imzalandı. Bu tarixi sənəd Cənubi Qafqazda sabitlik, iqtisadi inkişaf və təhlükəsizlik sahələrində yeni imkanlar açdı. Həsən müəllimin Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığı, vətən sevgisi ilə yazılan çox yığcam və məzmunlu təbrik məktubu onun bu tarixi hadisəyə münasibətini əks etdirir. Həsən müəllimin bu razılaşmanı Azərbaycan diplomatiyasının növbəti qələbəsi, Cənubi Qafqazda yeni dövrün başlanğıcı kimi qiymətləndirməsi onun əsl vətəndaş, vətən oğlu, ziyalı mövqeyini bir daha təsdiqləyir.

Həsən müəllimə möhkəm can sağlığı, uzun ömür, doğma Vətənimizin tərəqqisi, onun daha da çiçəklənməsi naminə gördüyü işlərdə uğurlar arzulayıram. Allah onu qorusun!

Akademik
Ziyad SƏMƏDZADƏ

Təhsil sahəsi üzrə yeni investisiya imkanları müzakirə edilib

Bakıda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dialoqları çərçivəsində "Azərbaycanın dayanıqlı inkişafı naminə təhsilə investisiya" mövzusunda 7-ci dialoq keçirilib.

Tədbirdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva təhsilin həm fundamental məqsəd olduğunu, həmçinin bütün Dayanıqlı İnkişaf Məqsədləri üzrə tərəqqinin əldə edilməsi üçün güclü hərəkətverici vasitə olduğunu vurğulayıb. "Azərbaycan 2030 Milli Prioritetləri"nə uyğun olaraq rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması, innovasiyaların stimullaşdırılması və inklüziv inkişaf üçün keyfiyyətli təhsilin rolu qeyd edilib. Qurum rəsmisi BMT-nin nəzərdə tutulan Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi (2026-2030) üzrə Azərbaycan hökumətinə DİM-lərə nail olmaqda dəstəyini ifadə edib.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Azərbaycan Hökumətinin BMT-nin qlobal təşəbbüslərində fəal iştirak etdiyini, birgə layihələr həyata keçirildiyini qeyd edib. Bildirilib ki, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, qeyri-neft-qaz sənayesinin inkişafı, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın müasir inkişaf strategiyasının əsasını təşkil edir. Ölkəmiz təhsil, insan kapitalının inkişafı, rəqəmsal savadlılığın və innovativ bacarıqların artırılmasına önəm verir.

Dövlət Vergi Xidməti yeni xidmət istifadəyə verib

Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi və vergi inzibatçılığının sadələşdirilməsi istiqamətində aparılan islahatlar davam etdirilir. Bu istiqamətdə növbəti addım kimi, 2025-ci ilin oktyabr ayının 1-dən etibarən Dövlət Vergi Xidməti (DVX) tərəfindən "Sadələşdirilmiş verginin bəyannaməsi"nin öncədən doldurulması ("prefiling") sistemi istifadəyə verilib.

DVX-dən bildirilib ki, yeni "prefiling" sistemi sadələşdirilmiş vergi ödəyiciləri üçün vergi bəyannaməsinin məlumat bazasında mövcud informasiya əsasında avtomatik hazırlanmasını və vergiödəyicisi tərəfindən təsdiq olunmasını əhatə edir. Vergi ödəyiciləri elektron kabinetləri vasitəsilə xidmətdən rahat şəkildə yararlana bilirlər.

Bəyannamənin əvvəlcədən doldurulması sistemi (prefiling) həm vergi ödəyiciləri, həm də vergi inzibatçılığı üçün bir sıra üstünlüklər verir. Sistem inzibatçılıq yükünü azaldır, vergi ödəyicilərinin vaxtına qənaət edir, məlumatların düzgünlüyünü artırır və hesabatlılıq prosesini sadələşdirir.

Eyni zamanda, vergi bəyannamələrinin daha operativ və dəqiq tərtib edilməsinə, məlumatların öncədən yoxlanılması ilə səhvlərin aradan qaldırılmasına, nəticədə vergi ödəyicilərinə göndərilən uyğunsuzluqların azalmasına və əlavə yazışmaların qarşısının alınmasına şərait yaradır. Ümumilikdə, "prefiling" sistemi vergi hesabatlarının keyfiyyətinin və səmərəliliyinin artırılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə və vergi ödəyicilərinin inzibati yükünün əhəmiyyətli dərəcədə azalmasına xidmət edir.

«Евразийская хартия многообразия и многополярности в XXI веке»

(август 2025 г., журнал «Россия в глобальной политике»)

(Начало в предыдущем номере)

По всем своим намерениям и целям речь Лейка стала духовным руководством для политики США после окончания Холодной войны, так как идея расширения дала зеленый свет и продвижению НАТО на восток, и вмешательству во внутренние дела многих государств, и попыткам принудительной «демократизации», и «цветным» революциям, которые спровоцировали многочисленные войны и конфликты. Таким образом, именно благодаря идее «расширения» мир в период после Холодной войны стал свидетелем разрушения многих стран, появления десятков миллионов вынужденно перемещенных лиц и многих других потрясений.

М.Рыженков, Министр иностранных дел Беларуси

Необходимо отметить, что стратегия не была специально ориентирована на евразийский регион. Однако, не может быть сомнений в том, что именно в Евразии она наиболее прилежно реализовывалась в таких местах, как Балканы, Ирак, Афганистан, Украина, которые имели первостепенное значение для Соединенных Штатов в их долгосрочных усилиях по обеспечению господства над евразийским континентом. С оглядкой в прошлое можно сказать, что стратегия также послужила цели прочного и последовательного закрепления Европы в сфере влияния США в Евразии.

